

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 55 (23.942)

20 mart 2022-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial şəbəkə hesablarında Novruz bayramı ilə əlaqədar paylaşım edib.



## Naxçıvanda Novruz bayramı münasibətilə ümumxalq şənliyi keçirilib

İnsanlarda ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa məhəbbət hissi oyadan Novruz bayramının hər il Naxçıvan Muxtar Respublikasında quruculuq, əmin-amanlıq və sabitlik şəraitində qeyd olunması ümummilli liderimiz Heydər Əliyev siyasi xəttinin bəhrəsidir. Artıq iki ildir ki, milli birliyimizin təcəssümü olan Novruz bayramı həm də Zəfər ovqatı ilə qarşılanır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Haqq işi uğrunda mübarizə duyğusundan aldığımız misilsiz mənəvi güclə biz sınaq anında yumruq kimi birləşərək əzəli torpaqlarımıza xaincəsinə uzanan əlləri kəsmiş, yurdumuzu bədxah düşməndən təmizləmiş və ədaləti qanımız bahasına bərpa etmişik. Ruhumuzun yenilməzliyinin təntənəsinə çevrilən və bizi dünyaya məğrur millət olaraq tanıdan şanlı Zəfərimiz Azərbaycana əbədi bahar gətirmişdir”.***

Martın 19-da “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində Novruz bayramı münasibətilə ümumxalq şənliyi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bayram şənliyində iştirak etmişdir.

Milli geyimli qız Ali Məclisin Sədrinə səməni təqdim etmişdir.



El ağsaqqalı Dədə Qorqud Novruzun gəlişi münasibətilə xeyir-dua verərək demişdir: “Bu gün Oğuz yurduna Novruz gəlir. El-oba tonqal başına yığışır, köhnə ildən arınaraq yeni ilə qədəm qoyur. Ulu Novruz, qədəmlərin sayalı olsun! Ey ulu xalqım! Ötən ildən bu bayramı qəhrəmanlıq tariximizdə qızıl hərflərlə əbədi qalacaq parlaq qələbə ilə qeyd edirik! Əbədi olsun! Xalqımın igid, mərd övladları yumruq kimi birləşərək əzəli torpaqlarımıza uzanan xain əlləri kəsdi, yurdumuzu yağılardan təmizlədi. Bu şanlı zəfərimiz yurdumuza əbədi bahar gətirdi! Dəmir yumruqlu sərkərdə Şuşada, Cıdır düzündə bayram tonqalı qaladı! Yanar olsun! Ötən il böyük uğurlarla yadda qaldı:



qədim diyarımızda əmin-amanlıq qorundu, abadlıq, quruculuq geniş vüsət aldı, uğur üstünə uğur qalandı. Xeyirli olsun! Ey Naxçıvanım! Hünərvər oğul və qızların abad olmuş ulus-oymaqda toy-büsat qurur, bugünkü xoş növrağınla fəxr edirlər. Oğuz yurdu Naxçıvanımızın qarlı dağları ucalar olsun, kölgəli ağacları yaşar olsun! Ağ köpüklü suları axar olsun! Novruz bayramı xalqımıza ruzi-bərəkət gətirsin. Bu il də bayram taxt-taclı Naxçıvan diyarı misilsiz nailiyyətlər qazansın! Uğur olsun! Bu əziz gündə qədim diyarımızın dünənini və bu gününü göz önünə gətirib deyirik: xalq üçün yaradanları xalq özü yaşadacaqdır! Yaşar olsun! Novruz bayramınız mübarək olsun!”

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bayram tədbirində çıxış edərək demişdir: Novruz Azərbaycan xalqının milli dəyərlərini özündə yaşadan qədim mədəniyyət bayramıdır. Xalqımız tarixin ağır sınaqlarında dilini, dinini, adət-ənənələrini qoruduğu kimi, Novruz bayramını da qoruyub saxlamışdır. Novruzun milli bayram kimi dövlət səviyyəsində qeyd olunması isə ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu milli soykökə və dəyərlərə qayıdış siyasətinin nəticəsidir.



Dahi şəxsiyyət deyirdi ki, ***“Novruz bizim ümumdövlət, ümummilli, ümumxalq bayramımızdır. Bu bayram bizim adət-ənənələrimizi əsrlərboyu yaşadıb bu günlərə gətirdiyi kimi, bu gün də bizi birləşdirir, daha da həmrəy edir, xalqımızda daha möhkəm birlik yaradır”.***

Ali Məclisin Sədri demişdir: “Bu gün Novruz bayramı Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında əmin-amanlıq, birlik, sabitlik və firavanlıq şəraitində, ən əsası isə böyük Qələbə sevinci ilə qeyd olunur. Bunun bir səbəbi var: o da ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam və inkişaf etdirilən Heydər Əliyev yolu, xalqımızın bu yola olan dərin sədaqəti və birliyidir. Ulu öndərin yolunun davam etdirilməsi nəticəsində muxtar respublikada da 2021-ci il inkişaf və quruculuq dövrü kimi tarixə düşmüş, ümumi daxili məhsul istehsalı 3 milyard manatdan artıq olmuşdur. Bu dövrdə iqtisadi göstəricilər artım dinamikası ilə qeydə alınmış, sənaye məhsulu 1,7, əsas kapitala yönəldilən vəsaitlər 2, kənd təsərrüfatı məhsulu 5,3, informasiya və rabitə xidmətləri 6,9 və pərakəndə əmtəə dövriyyəsi 2,1 faiz artmışdır. Özəl bölmənin inkişafı da diqqətdə saxlanılmış, iqtisadi fəaliyyətin müxtəlif sahələrində 142 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmışdır. Muxtar respublikada tikinti-quruculuq işləri də davam etdirilmiş, 355 müxtəlif təyinatlı obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Bütün bu uğurlara insan əməyi, zəhməti olmadan nail olmaq mümkün deyil. Muxtar respublikamızın inkişafına öz töhfəsini verənlərin hamısına təşəkkürümü bildirirəm. Əminik ki, iqtisadi imkanlar muxtar respublikada bundan sonra da inkişaf dinamikasını qoruyub saxlayacaqdır. Bayramın yeniləşdirici ab-havasına uyğun olaraq abadlıq-quruculuq işləri 2022-ci ildə də davam etdiriləcək, iqtisadiyyatın bütün sahələrində inkişaf təmin olunacaq, sabitlik daha da möhkəmləndiriləcəkdir”.

Ali Məclisin Sədri Novruz bayramı münasibətilə şəhid ailələrini, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan

Ardı 2-ci səhifədə





Muxtar Respublikası ərazisindəki ordu, birləşmə və hissələrinin şəxsi heyətlərini, veteranları, bütün muxtar respublika əhalisini təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamına uyğun olaraq muxtar respublikada xalq yaradıcılığının öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların geniş şəkildə tətbiq və təbliğ olunması istiqamətində mühüm işlər görülmüşdür. Novruz bayramında "Xalq yaradıcılığı günləri"nin keçirilməsi də mühüm əhəmiyyətə malikdir. Builki Novruz bayramında da musiqi kollektivlərinin iştirakı, Novruz adətlərimizin və milli dəyərlərimizin nümayişi böyük marağa səbəb olmuşdur.



Naxçıvan Dövlət Filarmoniyasının rəqs qrupunun ifasında "Birlik" rəqsi təqdim edilmişdir.

Aşıq sənətinin qədim tarixi vardır. Xalqımızın musiqi mədəniyyətinin qədimliyindən xəbər verən aşıq poeziyası zəngin şifahi xalq ədəbiyyatına əsaslanır. Vətənpərvərlik duyğularının, torpaq, yurd sevgisinin yüksək poetik tərənnümü olan bu sənətə Naxçıvanda da xüsusi qayğı ilə yanaşılır, aşıq yaradıcılığının inkişafına ciddi diqqət yetirilir. Bu bayram şənliyində Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyinin üzvləri "Bəhridivani" saz havası üzərində bayram təbriklərini çatdırmış, tədbir iştirakçılarına xoş anlar yaşatmışlar.



Ali Məclisin Sədri Aşıqlar Birliyinin üzvləri ilə şəkil çəkdirmişdir.

Culfa rayon Bənəniyar kənd sakini Həsənalı Əsgərov minnətdarlıq edərək demişdir: "Sabitlik şəraitində yaşamaq, işləmək ən böyük xoşbəxtlikdir. Həm də biz ona görə xoşbəxtik ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz işğal altında olan torpaqlarımızı azad etdi. Novruz bayramını Qələbə ovqatı ilə qeyd edirik".

Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfüqar Mahmudov Xalq artisti Əlibaba Məmmədovun "Min yaşasın" mahnısını ifa etmişdir.

Tulum və digər nəfəsli milli musiqi alətlərində xalq mahnılarının ifası tədbir iştirakçılarında xoş ovqat yaratmışdır.

Ali Məclisin Sədri "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının, "Naxçıvan Məhsulları" publik hüquqi şəxsin, "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinin, "Badamlı Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin stendlərinə baxmışdır.

Xalqımızın mədəni sərvətləri sırasında özünəməxsus yer tutan yallı rəqsi özündə əcdadlarımızın həyat tərzini, bədii-estetik zövqünü əks etdirir. Mərdlik və mübarizlik, vətənpərvərlik və həmrəyliyin mükəmməl bədii ifadəsi olan yallıların tarixi bəşəriyyətin yarandığı dövrdən başlayır. Naxçıvandakı qədim yaşayış məskənlərində, xüsusilə Gəmiqaya abidəsindəki daş salnamələrdə əks olunan yallı elementləri bunu bir daha təsdiq edir. Ali Məclis Sədrinin tapşırığına əsasən yallı sənətinin UNESCO səviyyəsində qorunması ilə bağlı tədbirlər görülmüş, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir. Şənlikdə Naxçıvan Musiqi Kollecinin rəqs qrupunun təqdim etdiyi yallı rəqsi birlik və həmrəyliyin daha bir təcəssümünə çevrilmişdir.

Bayram şənliyində Təhsil Nazirliyi tərəfindən innovativ dərnəklərin təqdimatı olmuşdur. Ali Məclisin Sədri məktəblilərin hazırladığı dulusçuluq, xalçaçılıq, toxuculuq və bədii tikmə, ağac üzərində oyma, mis üzərində döymə, duz və dəri üzərində işləmə, ebru sənəti və bəzək əşyalarından ibarət əl işlərinə baxmışdır.

Naxçıvan Dövlət Filarmoniyasının xor kollektivinin ifasında xalq mahnısı səsləndirilmişdir.

Teatr sənəti hər bir xalqın mədəni inkişafının göstəricisidir. Naxçıvanda teatr sənətinin tarixi qədim dövrlərə gedib çıxır. Xalq oyunları, meydan və qaravəlli, xüsusilə "Novruz" tamaşaları, bayram məzhəkələri teatr sənətinin ilk nümunələri olmaqla yanaşı, həm də xalqımızın yaradıcılıq təxəyyülünün imkanlarını və folklorumuzun zənginliyini göstərir. Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının kollektivinin ifasında tamaşaçılara təqdim edilən "Saçları səməni oğlan" Novruz kompozisiyası alqışlarla qarşılanmışdır.



Naxçıvan Dövlət Universitetinin Texnologiya Mərkəzinə aid stenddə kilim, palaz, əl ilə toxuma işləri, nağıl qəhrəmanlarına, eləcə də Azərbaycan xalqına və müxtəlif xalqlara məxsus milli geyimlər, Naxçıvan mədəniyyətinə aid abidələrin maketləri və müxtəlif əl işləri, dekorativ-tətbiqi sənət, heykəltəraşlıq və zərgərlik, həmçinin Naxçıvan milli mətbəxinə aid nümunələr, daş və şüşə üzərində oyma işləri sərgilənmişdir. Universitetdə təhsil alan xarici tələbələr milli dəyərlərimiz, adət-ənənələrimizlə tanış olur, milli musiqilərimizi və rəqslərimizi öyrənirlər. Universitetin xarici tələbələrindən ibarət rəqs qrupunun ifasında "Gülüm hey" və yallı rəqslərindən ibarət kompozisiya, "Sarı gəlin" mahnısının təqdimatı xoş təəssürat yaratmışdır.

Ali Məclisin Sədri Naxçıvan Dövlət Universitetinin xarici tələbələrindən ibarət rəqs qrupu ilə şəkil çəkdirmişdir.

Naxçıvan Musiqi Kollecinin "Sazçalanlar" ansamblı "Ayaq Şəşəngi" aşıq havasını ifa etmişlər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində məhkumlar tərəfindən hazırlanan əl işləri də sərgilənirdi. Məhkumların ictimai faydalı əməyə cəlb olunması onların islah olunması və cəmiyyətə faydalı vətəndaş kimi qayıtmasında mühüm rol oynayır. Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin istehsalat sahəsində hazırlanan əl işləri hər il muxtar respublikada keçirilən müxtəlif sərgilərdə, festival, yarmarka və el şənliklərində nümayiş olunur, satışı təşkil edilir. Builki Novruz şənliyində də məhkumların daşduz, ağac üzərində oyma üsulu ilə hazırlanmış sənət əsərləri, toxuma və tikmələr, cəzaçəkmə müəssisəsinin ərazisindəki istixanalarda yetişdirilən məhsullar nümayiş olunurdu.



Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi üzvlərinin dekorativ-tətbiqi sənət nümunələrinə baxmış, "Var gülüşündə" və "Yaşa, mənim xalqım" mahnıları tədbir iştirakçılarının alqışları ilə müşayiət olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

*Ardı 3-cü səhifədə*





tərəfindən təqdim olunan xüsusi istedada malik qadınların əl işlərindən ibarət sərgiyə baxış olmuşdur. Sərgidə qadınların Naxçıvan daşlarından hazırladıqları bəzək əşyaları, qolbaqlar, daş tozundan hazırlanan dekorativ işlər, muncuqla işlənmiş tablo, şüşə üzərində döymə, qədim döyüş aləti, milli geyimlər, tikmə, toxuma, dekorativ-tətbiqi sənət nümunələri, taxta üzərində yandırmalar, suvenirlər, bayram şirniyyatları, eləcə də istehsal etdikləri müxtəlif məhsullar maraqla qarşılanmışdır.

Ailə əməyinə üstünlük vermək, təsərrüfat işlərinə başlamaq, məhsul istehsal etmək də Novruz bayramının mahiyyətində duran əsas amillərdəndir. Bayram tədbirinə ailə təsərrüfatları tərəfindən çıxarılan məhsullar, xüsusi zövqlə qablaşdırılmış milli şirniyyat



və mətbəx nümunələri böyük marağa səbəb olmuşdur.

Ailə təsərrüfatçılarından Yaqut Babayeva və Anar Əzizov yaradılan şəraitə və dəstəyə görə minnətdarlıq etmiş, bayram təbriklərini çatdırmışlar.

Naxçıvan Dövlət Filarmoniyasının rəqs qrupu yallı rəqsini təqdim etmişdir.

Minlərlə şəhər sakininin və turistin iştirak etdiyi şənlikdə muxtar respublikada fəaliyyət göstərən istehsal və xidmət müəssisələri tərəfindən ictimai iaşə xidməti göstərilmişdir.

Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də Novruz bayramı münasibətilə şənliklər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Novruz bayramı muxtar respublikamızın rayonlarında da yüksək əhvali-ruhiyyə ilə qeyd edilib

## *Şərur rayonu*

*Ölkəmizin hər yerində olduğu kimi, Şərur rayonunda da Novruz bayramına əvvəlcədən geniş hazırlıq işləri aparılmışdır. Bütün yaşayış məntəqələrində Novruz adət-ənənələrinə uyğun təmizlik, abadlıq işləri görülmüş, səmənilər göyərdilmiş, bayram süfrələri bəzədilmişdi.*



Rayon mərkəzində bayram şənliyi yüksək əhvali-ruhiyyə ilə qeyd olunmuşdur. Əvvəlcədən Baharı, Novruzu təmsil edən müxtəlif şüar və plakatlarla, üçrəngli bayrağımızla bəzədilmiş meydanda rayon Mədəniyyət Şöbəsinin musiqi və teatr kollektivlərinin hazırladıqları əyləncəli, rəngarəng proqramlar bayram şənliyinə toplaşanların alqışları ilə qarşılanmışdır.

Keçəl və Kosanın Novruz əhvali-ruhiyyəli məzəli hərəkətləri və zarafatları hər kəsin diqqətini çəkmişdir. “Arpaçay” instrumental ansamblının müşayiəti ilə Novruzu, Baharı vəsf edən nəğmələr və xalq mahnıları, saz havaları ifa edilmiş, qara zurnanın səsi ərşə yüksəlmişdir. “Şərur qönçələri” uşaq yallı ansamblı, uşaq musiqi məktəblərinin şagirdləri ifa etdikləri rəqslərlə şənliyi daha da rövnəqləndirmişlər.

Tədbirin aparıcıları rayonda həyata keçirilən sosial-iqtisadi inkişafdan danışmış, qeyd etmişlər ki, bu gün Şərur geniş tikinti meydanına çevrilmişdir. Bu inkişafın, bu tərəqqinin fövqündə rayon sakinləri bayramlarımızın tacı olan Novruzu daha xoş əhvali-ruhiyyə ilə qarşılayırlar.

Tədbirin musiqili-əyləncəli hissəsi başa çatdıqdan sonra xalqımızın qədim sənət – misgərlik və dulusçuluq nümunələrinin, toxuculuq məmulatlarının, kənd təsərrüfatı alətlərinin, mətbəx nümunələrinin nümayiş etdirildiyi sərgiyə baxış olmuşdur.

Şənlikdə arzular, diləklər də bildirilmiş, Dədə Qorqud babamızın müdrik kəlamları xatırlanmışdır: “Torpağımız bərəkətli olsun, tonqallarımız heç vaxt sönməsin!”

## *Babək rayonu*



***Bayramsayağı bəzədilən Babək şəhərinin mərkəzi meydanında da bayram şənliyi keçirilib, yaz fəslinin yurdumuza qədəm qoyması təmtəraqla qeyd olunub. Tədbirin aparıcıları bayram iştirakçılarına sonra... bəkliləri Novruz bayramı münasibətilə təbrik edərək bildiriblər ki, Novruz bayramı təzə ili, baharın ilk gününü qarşılamaq deməkdir.***

Bildirilib ki, artıq odlar diyarı Azərbaycan baharın, yazın gəlişini qalib ölkə kimi qarşılayır. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti, şəhidlərimizin və qazilərimizin qəhrəmanlığı sayəsində Novruz bayramı əfsanəvi Cıdır düzündə, Şuşada da qeyd olunur.

Bayram tonqalı alovlandırıldıqdan sonra Novruzu vəsf edən nəğmələr ifa olunub, xalq mahnıları, aşıq havaları səsləndirilib. Rayon Mədəniyyət Şöbəsinin musiqi kollektivlərinin hazırladığı konsert proqramı tədbir iştirakçılarında xoş ovqat yaradıb. Xalq çalğı alətləri, nağara və saz ansambllarının ifası, yallı qrupunun təqdim etdiyi rəqslər şənlik iştirakçıları tərəfindən alqışlarla qarşılanıb. Tədbirdə müxtəlif milli oyunlar, qədim məişət əşyaları, milli mətbəximizin nümunələri və şirniyyatlar, adət-ənənələrimiz nümayiş etdirilib. Həmçinin yundarama, cəhrədə yunəyirmə, xalçatoxuma, kirkirədə qovutçəkmə, daşda ətdöymə kimi qədim el nümunələrimiz də nümayiş olunub və ictimaiyyətin nümayəndələri tərəfindən maraqla izlənilib.

Bayram tədbirində rayon sakinləri ilə də görüşüb həmsöhbət olduq. Cəhri qəsəbəsindən gəlmiş ziyalı Natiq Məmmədov dedi ki, Novruz milli dəyərləri, qədim keçmişimizi özündə yaşadan və hər bir azərbaycanlı üçün əziz bayramdır. Sevinirik ki, ulu əcdadlarımızdan bizə yadigar qalan Novruzu qalib ölkə, qalib xalq kimi qeyd edirik. Novruz bayramının dövlət səviyyəsində qeyd olunması bizi daha da qürurlandırır. Bu qürurun digər səbəbi isə budur ki, ildən-ilə dövlətimizin gücü artır.

## *Ordubad rayonu*

*Ordubad rayonunda da Novruz bayramı xüsusi təmtəraqla qeyd olunub. Tədbirin aparıcıları vurğulayıblar ki, əsrlərin sınağından çıxmış milli dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam bir təməl yaradıb.*



Qeyd olunub ki, ulu öndərin ideyalarının böyük ehtiramla yaşadıldığı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikada da Novruz bayramı xüsusi coşqu ilə keçirilir. Ali Məclis Sədrinin diqqət və qayğısı ilə xalq yaradıcılığı günləri çərçivəsində diyarımızda bir-birindən maraqlı tədbirlərin təşkili Novruz bayramını ümumxalq şənliyinə çevirib.

Kütləviliyi ilə seçilən bayram tədbirində nümayiş olunan maraqlı, rəngarəng meydan tamaşaları, Ordubad mətbəxinin inciləri sayılan məcməyi paxlavası, şəkərbura, qayğanaq, alana, sucuq, miyanpur, bir-birindən ləziz Ordubad yeməkləri, xüsusi səriştə ilə düzəldilmiş səmənilər, sənətkarların hazırladıqları əl işləri, qədim məişət avadanlıqları rayona təşrif buyurmuş qonaqların da diqqətini cəlb edib. Novruz şənliklərində meydan tamaşalarının qəhrəmanı olan Xanın çaparların müşayiəti ilə meydana gəlməsi böyük alqışlarla qarşılanıb. Musiqi kollektivlərinin ifa elədikləri maraqlı, rəngarəng musiqi nömrələri, rayon Uşaq-Gənclər İdman Məktəbinin karateçiləri, boksçuları və gimnastlarının nümunəvi çıxışları bayrama daha da rəng qatıb.

## *Culfa rayonu*

***Xalqımızın milli ruhunu min illərdir, özündə yaşadan Novruz bayramının gəlişi ilə əlaqədar Culfa rayonunda da el şənliyi keçirilib.***



Tədbirdə aparıcılar rayon sakinlərini Novruz bayramı münasibətilə təbrik edərək bildiriblər ki, Novruz bayramı ulu əcdadlarımızın bizə miras qoyduğu ən gözəl yadigardır.

Qeyd olunub ki, artıq iki ildir, bayram tonqalları arzu və ümidlərimizdən qanadlanaraq Qarabağımızda da şölə saçır. İşğaldan azad olunan torpaqlarımızda qalanan bayram tonqallarının tüstüsü düşmənə gözdağı verir.

Vurğulanıb ki, ötən ilin mart ayında ölkə Prezidentinin Şuşada – Cıdır düzündə Novruz bayramı tonqalını alovlandırması, qüdrətli dövlət başçısının oradan dünyaya verdiyi mühüm mesajlar hər bir azərbaycanlının qəlbini sonsuz sevinc və qürur hissi ilə doldurdu.

Rayon sakinlərinin xoş ovqatla izlədikləri şənlikdə Novruzu, baharı vəsf edən mahnılar oxunub, xalq mahnıları, aşıq havaları səsləndirilib. Rayon Mədəniyyət Şöbəsinin hazırladığı konsert proqramı tədbir iştirakçılarında yüksək əhvali-ruhiyyə, xoş hisslər yaradıb, “Çeşmə” ansamblının ifaları, təqdim olunan rəqslər şənlik iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Bayram sevincini yaşayan tədbir iştirakçıları ilə həmsöhbət olduq. Bildirdilər ki, Novruz məşəqqətli günlərə, sıxıntılı həyata son qoyaraq, tükənən gücləri bərpa edərək, insanların gözlərinə işıq, qollarına qüvvət, ayaqlarına güc verir, qəlblərini ümid və inamla doldurur. İnsanlar canlanmaqda olan təbiətdən ilham alır, onların qurub-yaratmaq həvəsləri daha da artır.

Bayram tədbirində iaşə xidməti təşkil olunmuş, idmançılarımızın şənliyə öz töhfələrini bəxş etməsi maraqla qarşılanmışdır.

*Ardı 4-cü səhifədə*

## Kəngərli rayonu



*Muxtar respublikamızın hər yerində olduğu kimi, martın 19-da Kəngərli rayonunda da Novruz bayramı yüksək əhvali-ruhiyyə ilə qeyd edilmişdir. Rayon mərkəzindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı Novruzun atributu olan səmənilərlə, bahara aid plakatlarla, bayraqlarla bəzədilmişdi.*

Rayon Mədəniyyət Şöbəsinin hazırladığı “Elimizə bahar gəlir” adlı əyləncəli-kütləvi bayram şənliyinin aparıcıları qələbə sevincli, zəfər müjdəli Novruz bayramı münasibətilə tədbirə toplaşanları salamlayaraq bildiriblər ki, bu bayram rayon sakinləri üçün həm də ikiqat əlamətdardır. Çünki Kəngərli rayonu Novruz bayramı ərəfəsində – 2004-cü il martın 19-da yaradılıb. Ötən müddət ərzində Kəngərli rayonu böyük inkişaf yolu keçmişdir. Rayon mərkəzində, bütün kəndlərdə infrastruktur layihələri reallaşdırılmış, yollar abadlaşdırılmış, yaşıllaşdırma tədbirləri həyata keçirilmişdir.

Sonra bayram tədbiri bir-birindən maraqlı musiqi nömrələri ilə davam etdirilmişdir. Novruzun əsas qəhrəmanları olan Kosa və Keçəl, Bahar qızın maraqlı-əyləncəli çıxışları alqışlarla qarşılanmışdır. Dədə Qorqud şənlik iştirakçılarını təbrik etmiş, onlara əmin-amanlıq, xoş gün-güzəran, mehribanlıq, səmimiyyət arzulamışdır. Meydanda qurulmuş Novruz tonqalını bir əlində məşəl, digərində isə Azərbaycan Bayrağı olan gənc alışdırmışdır.

Rayon Mədəniyyət Sarayının “Kəngər” instrumental ansamblının və rayon uşaq musiqi məktəbləri kollektivlərinin müşayiəti ilə ifa olunan şən mahnılar, rəngarəng musiqi nömrələri tamaşaçılara xoş ovqat bəxş etmişdir. Bayram tədbirində Şahtaxtı kənd Mədəniyyət Evinin uşaqlardan ibarət yallı kollektivi və rayon Mədəniyyət Sarayının böyüklərdən və uşaqlardan ibarət yallı kollektivlərinin təqdim etdikləri qədim xalq rəqsləri bayram şənliyinə əlavə rəng qatmışdır.

Novruz şənliyində bayram yarmarkası da təşkil olunmuş, müxtəlif meyvə və tərəvəz məhsulları, bayram şirniyyatları satışa çıxarılmış, iştirakçılara iaşə xidməti göstərilmişdir.

## Şahbuz rayonu



*Artıq elimizə, obamıza bahar gəlib. Bu bahar bir başqa bahardır. Qarabağ ətirli ikinci bahardır. Torpaqlarımızın işğaldan azad olunması yazın, bayramlarımızın coşğusunu daha da artırıb.*

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 2021-ci ildə xalqın birliyinin, həmrəyliyinin simvollarından biri olan Novruz bayramını Şuşa torpağında qeyd etməsi bizləri daha da qürurlandırdı. Cıdır düzündə alovlandırılan ən uca Novruz tonqalı isə Şuşamıza yeni bir işıq, düşmənə isə gözdağı oldu.

Xalqımızın xeyirxahlıq, mehribanlıq və qonaqpərvərlik kimi gözəl hisslərinin tərənnümü olan Novruz bayramını şahbuzlular da böyük sevinc və fərəhlə qeyd ediblər. Rayon mərkəzində təşkil olunan Novruz şənliyində Şahbuz Rayon Mədəniyyət Evinin “Batabat” instrumental ansamblı üzvlərinin ifasında səslənən mahnılar alqışlarla qarşılanıb.

Bayramın əsas personajları olan Kosa və Keçəlin sərgüzəştlərindən, duzlu-məzəli çıxışlarından sonra kənd mədəniyyət evlərində fəaliyyət göstərən folklor qruplarının çıxışları olub. “Hodu-hodu”, “Çöpüdü” kimi xalq oyunları ifaçıların çıxışlarına, sazçalan uşaqların bulaq suyu kimi saf zəngulələrinə maraqla tamaşa edən şahbuzluların xalq yaradıcılığı nümunələrindən və yerli sahibkarların istehsal etdikləri məhsullardan ibarət sərgiyə də baxış olub.

Həmin gün rayon mərkəzindəki Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında təşkil olunmuş geniş iaşə və ticarət xidmətləri, qoğallı, paxlavalı çay süfrəsi burada yazı birgə qarşılayan şahbuzlular üçün əsl asudə vaxt və məzmunlu istirahət ab-havası yaradıb. Rayon ziyalıları Zakir Ələkbərov və Növrəstə Xudiyeva söhbət zamanı bildirdilər ki, müstəqillik illərindən sonra həyata keçirilən kompleks tədbirlər sayəsində rayonumuz müasirliyə qovuşub.

## Sədərək rayonu

Sədərək rayonunda da Novruz bayramına əvvəlcədən geniş hazırlıq tədbirləri görülmüşdü. Hər yerdə Novruz adət-ənənələrinə uyğun təmizlik, abadlıq işləri aparılmış, səmənilər göyərdilmiş, bayram süfrələri bəzədilmişdi. Bayram münasibətilə keçirilən şənlikdə rayonun musiqi kollektivləri xalqımızın Novruz adət-ənənələrini, qədim el sənətkarlığından nümunələr nümayiş etdirib, Kosa, Keçəl və Bahar qız tamaşa göstərib, rəngarəng konsert proqramı ilə tədbir iştirakçılarına yüksək ovqat bəxş olunub.



Şənlikdə həmsöhbət olduğumuz el ağsaqqalı Əkbər Kərimov dedi ki, Sədərək sakinləri bütün bayramları, eləcə də Novruz bayramını böyük sevinclə qarşılayır, insanlar tonqalı qalayır, şənlik edirlər. Şən mahnıların səsi sərhədin o tayına, mənfur düşmənin yaşayış məntəqələrinə qədər gedib çıxır. Düşmən artıq ordumuzun qüvvəsini yaxşı bilir. Bilir ki, onlar tərəfindən atılan hər hansı bir səhv addım ağır nəticələrə gətirib çıxara bilər. Bugünkü Novruz şənliyində insanların bu qədər əmin-amanlıqla iştirak etməsi bir daha onu göstərir ki, sədərəklilər dövlətimizin gücünə, qüdrətinə tam əmindirlər. Elə bu əminlik də rayon sakinlərini torpağa, yurda daha sıx tellərlə bağlayır, onları daha yaxşı işləməyə, Sədərəyi daha da çiçəkləndirməyə sövq edir. Hər bir sədərəkli göstərilən qayğıya görə dövlətimizə minnətdardır.

Tədbir iştirakçıları sonra xalq yaradıcılığı nümunələrindən və yerli sahibkarların istehsal etdikləri məhsullardan ibarət sərgiyə baxıblar. Sərgidə xalq sənətinin ağacişləmə, dülgərlik, toxuculuq, xalçaçılıq, dəmirçilik, daşyonma sahələrini özündə əks etdirən nümunələr şənlik iştirakçıları tərəfindən maraqla qarşılanıb.

**Xəbərlər şöbəsi**

## Milli bayramımız Novruz təkcə türk xalqlarının deyil, ümumilikdə, bəşəriyyətin mənəvi dəyərlərini özündə yaşadır



*Novruz xalqımızın zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə əks etdirən ən qədim və ən əziz bayramlarımızdan biridir. Bu təbiət bayramı Azərbaycanla yanaşı, digər türk xalqlarında və bir çox qonşu ölkələrdə böyük təntənə ilə qeyd olunur. Novruz yeni ilin başlanğıcı, təbiətin oyanışı, həyatın canlanmasıdır.*

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm”.***

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev ulu öndərin vəsiyyətini və Azərbaycan xalqının arzularını reallaşdırdı. Ali Baş Komandanın rəhbərliyi altında müzəffər Azərbaycan Ordusu doğma torpaqlarımızı işğaldan azad etdi və biz artıq həmin ərazilərdə Novruz bayramını qeyd edirik. 2021-ci ilin Novruz bayramında Prezident cənab İlham Əliyev Mədəniyyət Paytaxtımız olan Şuşa şəhərinə gəldi və Cıdır düzündə Novruz tonqalı yandırdı.

İstər qədim türk mifologiyasında, istərsə də İslamın yaradılış haqqında görüşlərində canlıların var olması üçün su, yel (hava), torpaq və od əsas ünsürlər hesab edilir. İnsanların qədim inanc və təbiət qüvvələrinə olan heyranlıqları min illər ərzində formalaşaraq bayramların yaradılmasında, adət-ənənələrin formalaşmasında xüsusi önəm daşıyıb. Novruz təkcə onu keçirən türk xalqlarının deyil, ümumilikdə, bəşəriyyətin mənəvi dəyəri hesab edilir. Tarixi İslamdan əvvələ qədər uzanan Novruz bayramı Azərbaycanla yanaşı, bütün Şərqdə qeyd olunur. Bu bayrama verilən dəyərin ifadəsi olaraq 23 fevral 2010-cu ildə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında martın 21-i “Beynəlxalq Novruz Günü” elan olunub. Milli-mənəvi dəyərlərimizə verilən dəyərin ən gözəl nümunələrindən biri də Novruz bayramının UNESCO tərəfindən Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilməsidir. 28 noyabr-2 dekabr 2016-cı il tarixlərdə Efiopiyanın Əddis-Əbəbə şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 11-ci sessiyasında İraq, Qazaxıstan, Tacikistan, Türkmənistan və Əfqanıstan da Novruz bayramı nominasiyasına qoşulub.

Novruz bayramı həm də milli adət-ənənələrimizin bütün dolğunluğu ilə yaşandığı vaxtdır. Xalqımızın adətlərinə görə Novruz bayramında küsülülər barışmalı, qohum-qardaşlar bir-birini ziyarət edib, xonça nemətlərindən pay tutmalıdırlar. 21 mart 2000-ci il tarixdə Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən ulu öndər Heydər Əliyev öz çıxışında demişdir: ***“Novruz bayramının bizə bəxş etdiyi ən gözəl nemət ondan ibarətdir ki, qədim zamanlardan bu bayramda insanlar kin-küdurəti unudur, küsülülər barışır, ziddiyyətlər aradan götürülür.***



***Demək, bu, dostluq, həmrəylik, yüksək mənəviyyat bayramıdır”.***

Bolluq-bərəkət bayramı olan Novruzda ailə böyükləri ziyarət edilir, onlardan xeyir-dua alınır. Kimsəsiz, yaşlı insanları bayramda sevindirmək, onların könlünü almaq, hədiyyələr aparmaq bayramın ən gözəl adətlərindən hesab olunur. Papaq atmaq, qulaq falı, tonqaldan tullanmaq, üzük falı, səməni cücərtmək, yumurta döyüşdürmək və Novruz bayramı ilə əlaqələndirilən digər məşhur adətlər Azərbaycan xalqının tarixini, onun zəngin folklorunu və fəlsəfəsini özündə ehtiva edir. Novruz bütün ölkədə aşıqların, xanəndələrin, xalq müğənnilərinin konsertləri keçirilən kütləvi bayramdır. Burada kəndirbazlar, pəhləvanlar öz güclərini nümayiş etdirir, meydanlarda Kosa və Keçəlin iştirakı ilə komik tamaşalar göstərilir. Kosa yazı simvolizə edir. Kənd yerlərində at yarışları – “Çovqan” oyunu keçirilir. Novruz bayramı mədəniyyət xadimlərinin də yaradıcılığında tərənnüm olunur. Vaxtilə xalq sənətkarları Novruz bayramı haqqında mahnılar yazmış, filmlər çəkmişlər. Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Oqtay Zülfüqarov, Rəhilə Həsənova kimi görkəmli bəstəkarlar müxtəlif mahnılar bəstələmişlər. Həmçinin Novruz haqqında “Novruzun çələngi” və “Ocaq kimi” Azərbaycan filmləri də çəkilmişdir.

Saflığı və səmimiyyəti ilə seçilən Novruzda ən çox sevinənlər isə uşaqlardır. Onların sevincinə səbəb olan ən gözəl Novruz ənənəsi, sözsüz ki, papaqatmadır. Xüsusilə kənd yerlərində ilaxır çərşənbədə bayram süfrəsi açılandan sonra uşaqlar müxtəlif geyimlərlə üz-gözlərini gizlədər, qonşulara, qohumlara papaq atmaqla onlardan bayram sovqatı alırlar. Novruzda qız-gəlinlər milli geyimlərə üstünlük verirlər. Bu bayram həm də soykökə bağlılıq təzahürüdür.

Novruz bayramı deyəndə ağıla gələn ilk atributlardan biri də bayram süfrəsidir. İnanclara görə süfrəyə düzülən nemətlər nə qədər bol çeşidli olarsa, həmin il də bərəkətli olar. Novruzda bayram masasının üzərində mərkəzində səməni olan xonçanın olması vacibdir. Səməninin ətrafına milli şirniyyatlar: paxlava – yer kürəsinin 4 istiqamətini, qoğal – Günəşi, şəkərbura – ayı, rənglənmiş yumurta – həyatı simvolizə edir. Adətə görə süfrədə “S” hərfi ilə başlayan 8 məhsul olmalıdır: səbzi, sumaq, sirkə, səməni, süd, su, sünbül və süzmənin olması vacib şərtdir. Bayram süfrəsinin əsas bəzəyi plovdur. Novruz bayramı qonşuları, dostları xonçaya yığılmış şirniyyatlara qonaq etməklə davam edir.

Novruz haqqında danışanda onun əsas atributu olan səməni unutmaq olmaz. Yaşıllığı, təbiəti, yeni həyatı təmsil edən səməni həm də xoş arzu, niyyət hesab edilir. Xalq inancına görə, hər kəs səməninin özü cücərtməlidir. Səməni cücərtmədən əvvəl tutulan niyyət səməni yaxşı cücərəndə qəbul olar. Yalnız Novruz bayramı ərəfəsində bişirilən səməni halvası da bu bayramın ən gözəl nemətlərindən biridir.

Baharın gəlişi ilə insanlar həm də torpağın əkilib-becərilməsinə başlayırlar. Tarlalarda şum qaldırılır, torpağa toxum səpilir, bağlarda ağaclar budanır, meşələrdə bayramın ilk müjdəçisi novruzgülü boy atmağa başlayır. Elliklə qeyd edilən bu bayramda hər kəsin dilində əsrlərdən süzülüb gələn Novruz nəğmələri oxunur.

***Birlik-bərabərlik bayramı olan Novruz hər il yurdumuzda xüsusi təntənə ilə qeyd edilir. Onun bütün inanclarını, adət-ənənələrini yerinə yetirməklə növbəti il üçün təbiətin xeyir-duası alınır. Qoy bu bahar bayramı xalqımıza əmin-amanlıq gətirsin. Vətənimizdə təbiətin xoş ətri duyulsun, ocaqlarımız isti, süfrəmiz bərəkətli olsun. Novruz bayramınız mübarək!***

**Cəbi QULİYEV**
***Milli Məclisin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 248